DÜNYA

# Britaniya polisi hərbi baza yaxınlığında tapılan partlayıcıda İran izini araşdırır. Tehran rədd edir

Sentyabr 28, 2026




Zirehli maşın Feyrford hərbi bazasının içində patrul edir.

İran sentyabrın 28-də İngiltərədəki Feyrford Kral Hərbi Hava Qüvvələri bazası yaxınlığında şübhəli terror planı ilə hər hansı əlaqəsinin olduğunu təkzib edib.

İranın Londondakı səfirliyi həftəsonu baş verən hadisənin Tehranla əlaqələndirilməsini "əsassız və qərəzli ehtimallar" adlandırıb. Hadisə ilə bağlı aviabaza yaxınlığında beş Britaniya vətəndaşı saxlanılıb. Yerli sakinlərin şübhəli bilib xəbər verdiyi furqonlarda əldəqayırma partlayıcı qurğular aşkar edilib.

Səfirlik X platformasında yaydığı bəyanatda İranı bu həbslərlə əlaqələndirmək cəhdlərini “qətiyyətlə rədd edərək pisləyib”. Səfirlik bildirir ki, bu cür ehtimallar Britaniyada yalnız “iranofobiya təbliğatını gücləndirməyə” xidmət edir.

Britaniya polisi həbsləri İranla əlaqələndirməyib. Antiterror polisi araşdırmanın davam etdiyini bildirib.

## Polis İran izini araşdırır

Britaniyanın terrorla mübarizə polisi Feyrford Kral Hərbi Hava Qüvvələri (RAF) bazası yaxınlığında qarşısı alınan terror planında İran izini araşdırır. ABŞ qüvvələrinin İran əleyhinə əməliyyatlarda istifadə etdiyi bu strateji aviabaza yaxınlığında beş nəfərin saxlanılmasının yeni detalları məlum olub.

Şübhəlilər sentyabrın 27-si səhər saxlanılıb. Məlumata görə, yerli sakin Uelford yaxınlığında şübhəli üç furqon və maskalı şəxslər görərək təcili xidmətlərə məlumat verib. Təhqiqatçılar sonradan avtomobillərdə əldəqayırma partlayıcı qurğuların hazırlanmasında istifadə oluna biləcək materiallar aşkarlayıblar. Tapılan qurğuların işlək olub-olmadığı hələ araşdırılır.

## Köynəksiz və qandallı şübhəlilər

Furqonlardan birinin üzərində "FUEL 2YOU" yazısı və bir telefon nömrəsi qeyd olunub. Oxşar adla qeydiyyatdan keçmiş yanacaq şirkəti avtomobilin ona məxsus olmadığını, adından icazəsiz istifadə olunduğunu bildirib.

Sentyabrın 28-də yayılan fotolarda saxlanılan beş şübhəlinin köynəksiz və əlləri qandallı olduğu görünür. "The Guardian" yazıb ki, onların üst geyimləri gizlədilmiş silah və ya intiharçı jiletlərinin olması ehtimalına qarşı, ehtiyat tədbiri kimi çıxarıla bilərdi. Polis bunu hələlik rəsmən təsdiqləməyib.

Yerli şura üzvü **Tristan Uilkinson** sentyabrın 27-də "Reuters"ə bildirib ki, rəsmilər hələ altı həftə əvvəl İrandan Feyrford aviabazasına yönəlmiş konkret təhlükə barədə məlumatlı idilər. Onun sözlərinə görə, həmin vaxtdan bəri ərazidə nəzarət xeyli gücləndirilmişdi.

Britaniyanın müdafiə naziri **Ues Stritinq** tələsik nəticə çıxarmamağa çağırıb. Sentyabrın 28-də İranın bu planda mümkün iştirakı barədə sualı cavablandıran nazir vurğulayıb ki, **"hər hansı şərh vermək və ya ehtimal irəli sürmək üçün hələ çox tezdir" və bunu etmək məsuliyyətsizlik olardı.** Nazir ABŞ-nin müdafiə naziri Pit Heqsetlə danışdığını, Britaniyanın ABŞ ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini bildirib.

## Təhlükəsizlik tədbirləri

Sentyabrın 27-də təxminən 85 evin sakinləri təxliyə edilib, furqonların yoxlanması üçün ərazinin ətrafında 400 metrlik təhlükəsizlik perimetri yaradılıb. Polis beş nəfərin hələ də gözaltında saxlanıldığını və istintaqın davam etdiyini bildirir.

Britaniya mediasının məlumatına görə, hadisədən sonra ölkə ərazisində ABŞ ordusunun istifadə etdiyi digər hərbi bazalarda, o cümlədən Leykenhit və Mildenholl obyektlərində də təhlükəsizlik tədbirləri maksimuma çatdırılıb.

Bu hadisə Böyük Britaniyada xarici dövlətlərin düşmənçilik fəaliyyətləri ilə bağlı narahatlıqların artdığı bir dövrə təsadüf edir. Ölkənin daxili işlər naziri **Şabana Mahmud** bundan əvvəl İran və Rusiyanı Britaniya ərazisində cinayət törətmək üçün yerli proksilərdən istifadə etməkdə günahlandırmışdı.

Bu ayın əvvəlində yayılan hesabatlara görə, son bir ildə Britaniyanın hərbi baza və obyektləri 300 dəfədən çox dronların hədəfinə çevrilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur